

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 146 (23.558)

3 sentyabr 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vadanın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

Səfir Cuniçi Vada Azərbaycan Respublikasına fövqəladə və səlahiyyətli səfir təyin olunmağı ilə bağlı etimadnamə məktubunu və sələfinin məktubunu dövlətimizin başçısına təqdim etməkdən şərəf hissi duyduğunu bildirib, əlahəzrət Yaponiya İmperatorunun xoş arzularını çatdırıb.

Prezident İlham Əliyev Səfir Cuniçi Vadaya təşəkkürünü bildirib, ona ölkəmizdə yaxşı vaxt keçirməyi arzu edib. Ölkə başçısı Yaponiya və Azərbaycan arasında münasibətlərin çox uğurla inkişaf etdiyini, bu sıx əməkdaşlığın daha da gücləndiriləcəyinə ümidvar olduğunu vurğulayıb. Dövlətimizin başçısı Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirinə ölkəmizdə vəzifəsinin icrası ilə bağlı uğurlar arzulayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolaos Piperiqkosun da etimadnaməsini qəbul edib.

## S.N.Əzimovanın Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Sara Nurəddin qızı Əzimova 4 il müddətinə Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 2 sentyabr 2020-ci il*



## 1991-ci il 3 sentyabr: Azərbaycanın müstəqilliyinin başlanğıc tarixi

***Tarixi şəxsiyyətlər mənsub olduğu xalqın yaddaşında hər zaman yaşayır. Ancaq elə şəxsiyyətlər də var ki, onların xidmətləri daha fenomenal xarakter daşıyır. Bu mənada, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi fəaliyyəti, sadəcə, bir ölkə üçün yox, həm də başəri dəyərləri ilə seçilir.***

1969-cu ilin iyul ayının 14-də Azərbaycan rəhbərliyinə gələn görkəmli dövlət xadimi ölkəmizdə müqayisəolunmaz bir inkişaf mərhələsinin əsasını qoymuş, respublikamızı müstəqilliyə hazırlayacaq bir sıra əhəmiyyətli iqtisadi, siyasi, ideoloji addımlar atmışdır. Bu mərhələdə xalqımızın böyük oğlu əsl dövlət xadimi kimi özünəməxsus idarəçilik fəlsəfəsinin əsas konturlarını müəyyənləşdirmişdir. Dahi öndəri dövlət rəhbərindən görkəmli dövlət xadimi səviyyəsinə qaldıran da məhz bu idarəçilik fəlsəfəsi olmuşdur.

Ötən əsrin sonlarına doğru Sovet İttifaqının süquta uğraması ictimai-siyasi vəziyyəti ağırlaşdırmışdı. Həmin dövrdə cərəyan edən ölkədaxili və regional siyasi proseslər Azərbaycanı da uçurumun bir addımlığına gətirib çıxarmış, Ermənistanın əsassız torpaq iddialarına rəvac vermişdi. Ölkədən təcrid olunmuş, blokada şəraitində yaşayan Naxçıvan isə taleyin ümidinə buraxılmışdı. Yaranmış vəziyyətdən istifadə edən Ermənistan siyasi və hərbi təzyiqlərini getdikcə artırırdı. Vəziyyətin bu qədər gərgin olmasına baxmayaraq, Naxçıvanda əhali bütün sahələrdə çətinliklərə müqavimət göstərir, muxtar respublikanın ərazi bütövlüyünü qorumaq üçün mərdliklə mübarizə aparırdı. Bu cür çətin, mürəkkəb və məsuliyyətli məqamda ulu öndərimiz Heydər Əliyev kimi böyük və zəngin həyat məktəbi keçmiş təcrübəli dövlət xadiminin Azərbaycana qayıdışı, 1990-cı il iyulun 22-də Naxçıvana gəlməsi, qısa bir müddət sonra – 1990-cı il sentyabrın 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə keçirilən seçkilərdə 340 nömrəli Nehrəm seçki dairəsindən Azərbaycan parlamentinə, 2 nömrəli seçki dairəsindən isə Naxçıvan parlamentinə deputat seçilməsi xalq tərəfindən böyük sevinclə qarşılandı.

1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən ilk sessiyası da deputatların istəyi və böyük təkidi nəticəsində ümummilli lider Heydər Əliyevin sədrliyi ilə öz işinə başlamışdır. Həmin sessiyada Azərbaycanın müstəqilliyi və suverenliyi üçün böyük tarixi qərarlar qəbul edilmişdir. Belə ki, təcrübəli dövlət xadiminin təklifi ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı 70 ildən sonra ilk dəfə Naxçıvan parlamentində qaldırılmış, Azərbaycanın Ali Soveti qarşısında bu bayrağın rəsmi dövlət bayrağı kimi təsdiq edilməsi üçün vəsatət irəli sürülmüşdür. Naxçıvanda milli dövlətçiliyimizin bərpası yönündə atılan addımlar bununla məhdudlaşmamış, 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendum boykot edilmişdir. Bütün bu proseslər onun göstəricisi idi ki, ulu öndərin qətiyyəti, hər şeydən üstün tutduğu milli dövlət maraqları, bu maraqların bərpası və qorunması istiqamətində atdığı tarixi addımlar müstəqilliyimizin bəhrələrini bizə hər gün daha da yaxınlaşdırırdı. Azərbaycanın ən yeni tarixində mürəkkəb proseslərin getdiyi həmin vaxtda qədim Naxçıvan diyarında ümummilli liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildiyi gün bu hökmün yəqinliyini ötən dövrdə hər kəsə sübut etdi. Müstəqilliyini yenicə qazanmış bir ölkənin tarixin təlatümlü burulğanından qurtarmaq missiyasının başlanğıcı olan 1991-ci ilin 3 sentyabrı, eyni zamanda milli dövlətçiliyimizin əsaslarının qoyulduğu, xalqımızın varolma, özünü dünyada təsdiq etmək kimi arzu və amallarının başlanğıc tarixi idi. Sonralar dahi şəxsiyyət bu barədə demişdir: ***"Bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Xalqın bu əhval-ruhiyyəsini, tələblərini nəzərə alaraq bütün məsələləri götür-qoy etdim. Yəqin etdim ki, mən öz prinsiplərimə sadiq qalaraq, eyni zamanda indi Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə nəinki deputatların, binanın qarşısında, ətrafına toplaşan naxçıvanlıların qoyduqları vəzifənin ifasından geri çəkilsəm, bu, xalqın ağır günündə qaçmaq deməkdir... Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".***

Ümummilli lider Heydər Əliyevin fəaliyyəti, onun iradəsi ilə qəbul olunmuş qərarlar müstəqillik tariximizin ən parlaq səhifələridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarların tarixi əhəmiyyətini vurğulayaraq demişdir: ***"O illərdə nəinki Naxçıvan üçün, Azərbaycan üçün də tarixi qərarlar qəbul edilmişdir. ...O vaxt Naxçıvanın adı dəyişdirildi. Ulu öndərin təklifi ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarıldı. Naxçıvanda ilk dəfə olaraq 1990-cı illərdə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi qəbul edildi və Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, Azərbaycan dövləti də bu bayrağı rəsmi dövlət bayrağı kimi təsdiq etsin. 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendumda Naxçıvan iştirak etməmişdir. Yəni bu addımlar ondan sonrakı dövrdə Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. O illərdə də ulu öndər qətiyyət, cəsarət, öz xalqına, öz millətinə nə qədər bağlı olduğunu göstərmişdir. Bir daha göstərmişdir ki, onun üçün dövlət maraqları, Azərbaycanın maraqları hər şeydən üstündür".***

Həmin dövrdə qarşıda duran əsas vəzifə sərhədlərinin böyük bir hissəsi boyunca düşmən hücumlarının hədəfinə çevrilmiş Naxçıvanı işğal təhlükəsindən xilas etmək idi. Buna görə də Türk dünyasının böyük oğlu Ali Məclisin Sədri vəzifəsinin icrasına başlayandan cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında Qərar qəbul etmişdir. Bu qərar Naxçıvanın müdafiəsinin gücləndirilməsi istiqamətində atılan ilk addım oldu. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların muxtar respublikada saxlanılması və şəxsi heyətin çıxarılması təmin edilmişdir. Əhalinin mütəşəkkilliyi, torpağa bağlılığı və ulu öndərə olan sonsuz inamı nəticəsində muxtar respublikada ilk milli ordu birləşmələri yaradılmış, Naxçıvanın müdafiə potensialı yaxşılaşdırılmış, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası ilk dəfə məhz Naxçıvanda qoyulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ulu öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrünü belə xarakterizə etmişdir: ***"Tale ulu öndəri bu regiona göndərməklə Naxçıvanı işğal olunmaq, əhalisini isə qaçqın ömrü yaşamaq təhlükəsindən hifz etdi. Azərbaycanın bu qədim torpağını xilas edən ulu öndər özünə Naxçıvan boyda abidə ucaltdı. Azərbaycanın siyasi tarixində parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, sıravi deputat, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli***

Ardı 2-ci səhifədə

***dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxartdı”.***

Muxtar respublikanın dağılmış iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının dirçəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsini də ümummilli liderimiz diqqət mərkəzində saxlayırdı. Naxçıvan Muxtar Respublikasının Türkiyə və İranla çoxəsrlik qonşuluq əlaqələrinin bərpası da uzun illərdən sonra ilk dəfə ümummilli liderin Naxçıvanda fəaliyyət göstərdiyi dövrə təsadüf edir. Görkəmli dövlət xadimi 1992-ci ildə qonşu Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına səfərlər etmiş, keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalanmış, hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər qurulmuşdur. Bunun nəticəsində qısa müddətdə Araz çayı üzərində “Ümid” körpüsü tikilib istifadəyə verilmiş, Sədərək, Culfa və Şahtaxtı gömrük-keçid məntəqələrinin fəaliyyəti təmin olunmuşdur.

Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında” və “Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında” qərarlar qəbul edilmiş, bu islahatlar aqrar bölmədə irəliləyişlərə səbəb olmuşdur.

Ölkəmizin ictimai-siyasi həyatı, gələcəyi üçün daha mühüm bir hadisə 1992-ci il noyabrın 21-də yenə də Naxçıvanda baş verdi: respublikanın müxtəlif bölgələrindən gələn 550-dən artıq nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Müstəqil Azərbaycanın ən qüdrətli partiyası olan Yeni Azərbaycan Partiyası yaradıldı. Azərbaycanın gələcəyinin təhlükə qarşısında qaldığı, dövlətimizin taleyinin həll olunduğu bir dövrdə yaranan Yeni Azərbaycan Partiyası milli dövlətçiliyimizin inkişafı üçün son dərəcə əhəmiyyətli olan yeni tarixi mərhələnin əsasını qoydu. Güclü sosial bazası, gerçəkliyə əsaslanan proqramı, ən önəmlisi isə ulu öndər Heydər Əliyev kimi lideri olan Yeni Azərbaycan Partiyasının siyasi səhnəyə çıxması iyirminci əsr Azərbaycan tarixinin mühüm hadisəsi idi.

Xüsusilə vurğulanmalıdır ki, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanda müstəqil dövlətçiliyin böyük məktəbinə çevrilmişdir. Bu elə bir məktəb idi ki, müstəqil Azərbaycanın dövlətçilik sisteminin konturları, gələcək inkişafın istiqamətləri məhz burada görkəmli dövlət xadimi tərəfindən hazırlanmışdır.

Bəhs olunan dövrdə hakimiyyətdə olan səriştəsiz, bacarıqsız və təsadüfi şəxslərin əməlləri nəticəsində 1993-cü il iyun ayının əvvəllərində respublikada gərgin ictimai-siyasi vəziyyət yaranmışdı. Hadisələr kulminasiya nöqtəsinə çatmış, silahlı qarşıdurmalar fonunda hakimiyyət böhranı, siyasi böhran bütün ölkəni öz cənginə almışdı. Azərbaycan öz dövlət müstəqilliyini bir əsrdə ikinci dəfə itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Vəziyyətin getdikcə ağırlaşdığını görən xalq yeganə ümid yeri kimi həmin vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ümummilli liderimiz Heydər Əliyevə üz tutdu. Dahi şəxsiyyət xalqın çağırışlarına cavab verdi və 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıtmaqla respublikanı xaosdan, anarxiyadan, parçalanmaqdan, yox olmaqdan xilas etdi. Bu hadisə Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi yazıldı.

Görkəmli dövlət xadimi qısa müddətdə ölkədə baş alıb gedən hərc-mərclik və anarxiyanı aradan qaldırdı, qanunun aliliyi təmin olundu, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiyamız qəbul edildi, müasir idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu, iqtisadi tərəqqi şərtləndirən qlobal layihələr reallaşdırıldı. Sevindirici haldır ki, bu gün ulu öndərimizin siyasi xətti dövlət başçısı tərəfindən uğurla davam etdirilir, Azərbaycan gündən-günə inkişaf edir, beynəlxalq aləmdə mövqelərini daha da gücləndirir, yeni-yeni nailiyyətlərə imza atır.

Ulu öndərin siyasi xəttinə sədaqət nümunəsi olan Naxçıvan Muxtar Respublikası da bu gün dinamik şəkildə inkişaf edir, Azərbaycanın sürətlə tərəqqi edən diyarı kimi şöhrət qazanır. Blokada vəziyyətində olmasına baxmayaraq, qədim diyarımız yeni inkişaf nümunəsi ortaya qoymuşdur. Heydər Əliyev ideyalarına tükənməz sədaqətin nümunəsi olan Naxçıvan bu gün bütün Dövlət proqramlarının, infrastruktur layihələrinin uğurla həyata keçirilməsi sayəsində bir sıra mühüm göstəricilər üzrə iqtisadi təhlükəsizliyini təmin etmiş, mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilmişdir.

Son illər rayon mərkəzlərindən ucqar dağ kəndlərinədək hər yerdə aparılan genişmiqyaslı quruculuq işləri qədim Naxçıvanın hüsnünü daha da gözəlləşdirmiş, enerji, ərzaq və müdafiə təhlükəsizliyi təmin olunmuşdur. Həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində muxtar respublikada makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Naxçıvan Muxtar Respublikası müstəqil Azərbaycanın yenitipli məktəblərə, səhiyyə ocaqlarına, yeni texnologiya ilə təchiz olunmuş işlək sənaye müəssisələrinə, hər qarış torpağı əkilib-becərilən kənd təsərrüfatına malik inkişaf etmiş qabaqcıl diyarına çevrilmişdir. Ötən dövrdə ərzaq və enerji təhlükəsizliyinin təmin olunması sahəsində böyük işlər görülmüşdür. Kənd təsərrüfatı və xidmət sahələrində müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət müəssisələrinin fəaliyyətə başlaması, aqrar sənayenin inkişafının dəstəklənməsi Naxçıvanın ixrac potensialını artırmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ilk sədri olduğu “Caspian European Club”un 2017-2018-ci illər üçün Azərbaycanın iqtisadi regionlarının 18 parametr üzrə hazırlanmış illik investisiya reytinqində isə Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq lider olmuşdur.

*Ulu öndər Heydər Əliyev siyasi xətti Azərbaycanın dünəni, bu günü və gələcəyidir. Bu gün dünyanın inkişaf etmiş ölkələri sırasında öz layiqli yerini tutan Azərbaycan və onun blokada şəraitində olmasına baxmayaraq, böyük inkişaf mərhələsinə yüksələn Naxçıvan Muxtar Respublikası ulu öndərin siyasi xəttinin bəhrəsi, Heydər Əliyev yoluna sədaqətin nümunəsidir.*

**“Şərq qapısı”**

# Bayrağım – qürurum, varlığım, bəxtiyarlığım...



***Naxçıvan şəhərinin ən hündür nöqtəsində, Pişəvəri küçəsində salınan, Avtovağzal kompleksi ilə üz-üzə yerləşən Bayraq Meydanındayam. Şəhərimizin bu yüksək zirvəsini dəyərli edən, elə bu meydanın köksündə ucalan, bütün naxçıvanlıların fəxri, iftixarı üçrəngli bayrağımızdır. Beş minillik şəhər mədəniyyətinə malik, bir vaxtlar Naxçıvan şahlığı, Azərbaycan Atabəylər dövləti, Naxçıvan xanlığının inzibati mərkəzi, Araz-Türk Respublikasının yaradıldığı məkanda – qədim tarixə, böyük dövlətçilik ənənələrinə malik diyarımızda dövlət atributlarına hörmət və ehtiramın ifadəsi kimi ucalır şanlı bayrağımız... Başımı qaldırıram, əzəmət və vüqarla dalğalanan bayrağıma baxıram. Gözlərim parlayır, üzüm gülür, qəlbim sevinir, ürəyim dağa dönür. Elə bu anda qəlbimdən keçən sözləri Onunla bölüşürəm.***

Mənliyim, kimliyim, varlığım, doğma və əziz bayrağım! Sən varsansa, dalğalanırsansa, demək, mən də varam, müstəqil dövlətim, azad xalqım da var. İmzalar içərisində millətimin imzası, Vətənimin sözü, söhbəti var. Ayın, ulduzun göylərin simvolu mavi, qırmızı, yaşıl rəngin türklüyümüz, müasirliyimiz, müqəddəs İslam dininə mənsubluğumuzun nişanəsidir. Sən dilimdə tükənməyən sözüm, qələmimin bitməyən yazısısan. İnancımız, andımız, mənəvi sərvətimiz, ali dəyərimizsən. Azərbaycan adını hər yerdə qürurla daşıyan, haqq səsimizin carçısısan. Dünyanın dörd bir yerində məskən salan vətəndaşlarımızın milli birlik, həmrəylik elçisisən.





Sən ulu öndər əmanəti, Prezidentimizin arxasında ən böyük güc, qüvvəsən. Bu meydanda dalğalanmaqla dostu sevindirir, düşməni xar edirsən. Səninlə bütünləşir Naxçıvan. Babəkin, Koroğlunun harayında, Dədə Qorqudun sazında, Arazın döyüş ruhunda, ulu əcdadımın Gəmiqaya zirvəsində, müqəddəs “Qurani-Kərim”in surələrində əksini tapırsan. Tarixin keşməkeşli yollarından keçib, illərin sınağından üzüağ çıxmısan. Düz 70 il öz doğma yurdundan ayrı salınıb, yasaq edilmisən. Bu ayrılıq da xalqının sənə olan sevgisini, müstəqilliyə, azadlığa olan inamını bir an olsun, söndürə bilmədi. Məhz bu bayraq altında müstəqillik uğrunda minlərlə oğul və qızlarımız şəhidlik zirvəsinə yüksəldi. Məhz ötən ay Ermənistan tərəfindən təşkil edilmiş təxribat nəticəsində Vətən uğrunda döyüşlərdə qəhrəmancasına həlak olan Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev və digər igid, cəsur oğullarımız kimi... Sən onların ruhlarının daşıyıcısı, nəsillər yaşadan qan yaddaşısan. Səninlə qəhrəman oğullarımızın əkdiyi zəfər gülləri çiçəklənir, gələcəyə olan ümidlərimiz güclənir...

Çətin günlərimizdə Allah bizə böyük xilaskarımız – ulu öndərimiz Heydər Əliyevi bəxş etdi. Dahi liderin təşəbbüsü ilə üçrəngli bayrağımız qədim torpağımız Naxçıvanda əbədi yüksəkliyə qaldırıldı. Xalqımız neçə illik əsarətdən xilas oldu, müstəqillik qazandıq. Düz 30 ildir, düşmənə gözdağı kimi diyarımızda dalğalanan bayrağımın ucaldıldığı meydanda unikal quruluşu ilə diqqəti cəlb edən Bayraq Muzeyi var. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında” 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən yaradılan bu muzey günü-gündən inkişaf edən, sülh, təhlükəsizlik məkanı Naxçıvanın qədim tarixini, keçmişlə bağlı həqiqətləri təcəssüm etdirən, qoruyan və təbliğ edən mədəniyyət ocağıdır.

Muzey binasına daxil oluram. Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” Qərarın surətinə və həmin tarixi günə aid fotoşəkillərə diqqətlə baxıram. Düşünürəm ki, Naxçıvanda bu böyük şəxsiyyətə olan məhəbbətin, sədaqətin nəticəsidir ki, qədim diyarımızın sakinləri bayrağımıza ehtiram göstərir, noyabrın 17-ni Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edirlər. Muzeydə tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının bərpa olunmuş bayraqları, gerb və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları, qədim pul nişanlarının fotoşəkillərinin əksini tapdığı 134 eksponat Naxçıvanın qədim tarixini öyrənmək istəyən hər kəs üçün zəngin məlumat mənbəyidir. Ötən müddət ərzində muxtar respublikamızda Naxçıvan xanlığının dövlət rəmzlərinin müəyyən olunması ilə bağlı bir sıra tədqiqatlar aparılıb, kitablar, elmi məqalələr çap olunub. Kəngərli süvari dəstəsinin fəxri və döyüş bayraqları, eləcə də Naxçıvan bəy drujinasının döyüş bayrağı bərpa edilib. Naxçıvan xanlığının dövlət və döyüş bayraqlarının aşkar edilərək muzeyə təhvil verilməsi də Naxçıvanın dövlətçilik tarixini, ənənələrini öyrənib gələcək nəsillərə çatdırılması baxımından atılan mühüm addımlardandır. Müxtəlif tədbirlərin keçirilməsinin ənənə halını aldığı muzey muxtar respublikamızın nazirlik, komitə, agentliklərinin, idarə, müəssisə və təşkilat kollektivlərinin, eləcə də bu diyara gələn turistlərin ziyarət etdikləri ünvanlar arasında ilk sıralarda dayanır. Dövlət qulluğuna yeni təyin olunmuş gənclərin andiçmə mərasimlərinin burada keçirilməsi isə onların bayrağımıza, xalqımıza, dövlətimizə ehtiram hissinin gücləndirilməsində mühüm rol oynayır.

*Muzeydə hər bir ekspozisiya ilə ayrı-ayrılıqda tanış olduqdan sonra buradan ayrılıram. Gəlişim zamanı bu əzəmətli üçrəngli bayraq məni böyük inam hissləri, qələbə düşüncələri ilə qarşıladığı kimi də yola salır. İnanıram ki, gün gələcək müstəqilliyimizin, suverenliyimizin ifadəsi, düşmənə gözdağı kimi Lələtəpədə, Günnütdə dalğalanan bayrağımız erməni işğalı altında olan doğma Qarabağımızda, Xankəndidə, Şuşada, Kərkidə sancılacaq. Bu anı böyük ümid və səbirsizliklə gözləyirik! Bizim günügündən güclənən qüdrətli ordumuz, Ali Baş Komandanımızın qətiyyətli addımları bizi bu zəfərə hər gün bir addım daha yaxınlaşdırır...*

**Güntac ŞAHMƏMMƏDLİ**

***Qədim diyarımız Naxçıvan xalqımızın daş yaddaşı, misilsiz sərvəti olan, yaşı minilliklərə söykənən sirli-soraqlı tarixi abidələrlə zəngindir. Sevindirici haldır ki, bu gün təkcə paytaxt şəhərimizə deyil, muxtar respublikamızın hansı səmtinə üz tutsan, orada hər daşı-qayası min bir tarix danışan, şanlı keçmişin yadigarı olan, dünəndən bu günə işıq salan abidələr mövcuddur. Elə götürək Naxçıvanın Şərqə açılan qapısı Culfa rayonunu... Xalqımızın mərdlik, yenilməzlik, mübarizlik rəmzi – Əlincə qalası, Azərbaycan memarlığının əvəzsiz nümunəsi – Gülüstan türbəsi, qədim insanların müdafiə istehkamı – Qazançı qalası, qoca Şərqin memarlıq incisi, şeyxlər ocağı – Xanəgah abidə kompleksi, əcdadlarımızın iman yeri, zikr evi – Kırna türbəsi ulu diyarımızın tarixi zənginliyindən xəbər verən abidələrdir.***



*Tarixi abidələrimiz milli sərvətimizdir*

# Dünya memarlığının nadir inciləri

Öncə dünya mədəniyyəti tarixində özünəməxsus yeri olan Əlincə qalasının keçmişinə nəzər salaq. Bu qalanın tarixi xalqımızın öz azadlıq və istiqlaliyyəti uğrunda yadelli işğalçılara qarşı apardığı mübarizə ilə bağlıdır. Elə bu səbəbdəndir ki, qala qədim diyarın mübarizlik və əyilməzlik simvolu kimi özünə şöhrət qazanıb. Araşdırdığımız mənbələrdə qalanın salınma tarixi barədə dəqiq məlumat olmasa da, bu abidənin orta əsrlərdə Azərbaycanın tərkibində olan dövlətlərin tarixində əvəzolunmaz rol oynadığı və xarici düşmənlərə qarşı müdafiə istehkamı kimi istifadə edildiyi qeyd olunub. Əlincə yüzillərlə Azərbaycanın və Yaxın Şərqin müxtəlif hakim sülalələrinin istehkam qalası olsa da, tarixdə daha çox Azərbaycan Atabəylərinin iqamət və xəzinə yeri kimi tanınıb. Azərbaycan Atabəyləri – Eldənizlərin hökmranlığı dövründə Əlincəqalanın istər hərbi-strateji, istərsə də siyasi mövqeyi xeyli artıb. XIV əsr isə qalanın tarixində xüsusi yer tutur. Bu, Əmir Teymurun hücumları və qalanın mərd-mərdanə müdafiəsi ilə bağlıdır.






Yenilməz, əyilməz, mübariz qala 14 il Əmir Teymur qoşunlarının həmləsinə sinə gərib, dövrünün ən güclü hərbi qüvvələrini məğlubiyyətə uğradan böyük cahangir Əmir Teymuru öz möhkəmliyi ilə heyrətləndirib. Bu illər ərzində qalaya dəfələrlə hücumlar olsa da, Əmir Teymurun qoşunu qalanı ala bilməyib. Azərbaycanda orta əsrlərin sonlarına yaxın baş verən feodal çəkişmələri və müharibələri nəticəsində qala dağıdılsa da, bu gün qədirbilən dövlətimizin qayğısı sayəsində yurdumuzun köksündə yenidən bərq vurur. Muxtar respublikamızda tarixi-mədəni irsimizə daim qayğı ilə yanaşan dövlətimizin apardığı məqsədyönlü siyasətin nəticəsidir ki, əcdadlarımızın miras qoyub getdiyi bütün mədəni sərvətlərimizin gələcək nəsillər üçün qorunub saxlanılması ilə bağlı mühüm tədbirlər həyata keçirilir. Yeri gəlmişkən, 2007-ci ildə Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilən Əlincəqalada muxtar respublika rəhbərinin "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən aparılan genişmiqyaslı bərpa işləri bu sahədə görülən tədbirlərin növbəti təzahürüdür.

Qalanın etimologiyasına gəldikdə isə bu toponim mənbələrdə "əlini çək" kimi qeyd olunsa da, elmi mülahizələrə görə, Əlincə, Alançıq – "meydança", "kiçik meydan", alan – qədim türk dilində "düzənlik", "meydan" sözlərini ifadə edir. Naxçıvan folklorunda isə qalanın toponimi başqa bir maraqlı fikirlə mülahizə olunur. Deyilənlərə görə, bu ad Nuh Peyğəmbərin nəticəsi Alınca xanın adı ilə bağlı yaranıb. Zaman keçdikcə həmin qala adı canlı danışıq dilində tədricən Əlincə şəklinə düşüb.

Azərbaycan xalqının əyilməzlik və mübarizlik rəmzi kimi özünə şöhrət qazanan Əlincə qalası ən qədim ulu dastanımız "Kitabi-Dədə Qorqud"da da möhkəm istehkam qala kimi təsvir olunub. Onuncu boyda "Əgrəgi tutdular, Əlincə qalasına zindana bıraqdılar", "Hünərin var isə qartaşın Əlincə qələsində əsirdir, var onu qurtar" ifadələri bunu bir daha təsdiq edir.

Qalanın çevrəsindəki qəbiristanlıq, türbə və xanəgahlar bu yerlərin uzun illər abad yaşayış məskəni olduğundan da xəbər verir. Mənbələrdə hürufilərin yaşayış məskəni, qiyam və mübarizə məkanı kimi qeyd olunan qalada Hürufiliyin banisi Fəzlullah Nəiminin 1394-cü ildə Miranşahın əmri ilə burada öldürülməsi barədə də məlumatlar var. Yerli sakinlərin fikrincə, Nəimi Əlincədə qətlə yetirildikdən sonra onun cənazəsi Xanəgah kəndində dəfn edilib. Hazırda qəbrin üzərində "Xanəgah" adlı abidə də ucaldılıb. Yerli əhalinin dili ilə "Şeyx Xorasan" adlanan abidə tədqiqatçılar tərəfindən Nəiminin təhsil alıb kamilləşdiyi Xorasandan Azərbaycana gəldiyi üçün xorasanlı şeyx, Xorasan şeyxi kimi izah edilir. Bu qəbrin üzərində ucalan abidə Culfa rayonunun Xanəgah kəndində, Əlincəçayın sahilində orta əsrlərə aid memarlıq kompleksidir. Kompleksdə türbə, məscid və bəzi tikililərin qalıqları zəmanəmizədək gəlib çatıb. Buraya daxil olan türbənin cənubdan giriş qapısının baş tərəfində qoyulan kitabənin məzmunundan aydın olur ki, türbə əmir, isfəhsalar, böyük alim Uluq Qutluq Lala bəyin əmri ilə memar Xacə Cəmaləddin tərəfindən inşa edilib. Türbənin cənubunda ona bitişik inşa edilmiş türbə-məscid isə sufi təriqətinin rəhbərlərindən olan Şeyx Hacı Lələ Məliyin xatirəsinə hicri 901, miladi 1495-1496-cı illərdə Xond Bikə xatın tərəfindən inşa edilib.

Rayon ərazisindəki maraqlı abidələrdən biri də Qazançı körpüsüdür. Körpünün eni 3,55 metr, uzunluğu 10,85 metr, hündürlüyü 8,8 metrdir. Yerli əhali arasında "Qozbel körpü" adı ilə tanınan bu körpü zəmanəmizədək nisbətən salamat vəziyyətdə gəlib çatmışdır. Körpü zaman keçdikcə təbii qüvvələrin təsirindən, xüsusilə keçən yüzillikdə baxımsızlıqdan aşınmalara məruz qalmış, bəzi yerləri uçub dağılmışdı. Ali Məclis Sədrinin tapşırığı ilə 2018-ci ilin iyul ayından körpüdə bərpa işlərinə başlanılmış, ətrafında 120 metr sahilbərkitmə işləri aparılmış, 50 metr uzunluğunda istinad divarı salınmış, körpünün üzəri dağ daşları ilə üzlənilmişdir.

Min illərdir, yurdumuzun sinəsində ucalan, böyük zəhmətlə daşı daş üstünə qoyulan türbələr keçmişimizdən bu günümüzə açılan pəncərə, ötənlərimizin oxunmamış kitabıdır. Bu baxımdan Naxçıvanın türk-islam mədəniyyəti nümunələrindən biri olan Gülüstan türbəsi də Azərbaycan memarlıq abidələri içərisində özünəməxsus yer tutur.

Rayonun Gülüstan kəndi yaxınlığında yerləşən bu türbə muxtar respublika ərazisində qeydiyyata alınmış dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrindən biridir. Orta əsr mənbələrində bəzən "Kəsik günbəz" kimi xatırlanan, memarlıq-konstruktiv quruluşuna görə Naxçıvanın, bütövlükdə, Azərbaycanın türbətipli digər memarlıq abidələrindən fərqlənən Gülüstan türbəsinin sərdabəsi "kürsülük" adlanan yerüstü hissədə yerləşir. Kürsülük xaricdən kəsik piramida, daxildən silindrik quruluşa malikdir. Türbənin səthləri oyma həndəsi ornamentlərlə və dekorativ tağlarla bəzədilib. Naxçıvan memarlıq məktəbinə məxsus digər türbələrdə olduğu kimi, Gülüstan türbəsində də taxçaların içərisi incə həndəsi ornamentlərlə örtülüb. Türbənin memarlıq üslubu Səlcuqlar dövrünün abidələri ilə, üzərindəki həndəsi ornamentlər isə Əcəmi memarlıq məktəbinə daxil olan abidələrlə oxşarlıq təşkil edir. Gülüstan türbəsinin və abidənin yerləşdiyi ərazinin tarixi və mədəni əhəmiyyəti nəzərə alınaraq burada "Gülüstan" Tarix-Mədəniyyət Qoruğu yaradılıb. Qoruq Araz çayının sol sahilində yerləşir. Tarixi keçmişimizə göstərilən hörmət və ehtiramın nəticəsidir ki, Naxçıvan ərazisində mövcud olan tarixi abidələr qorunur və mühafizə altına alınır. Bu gün əcdadlarımızın yadigarlarına göstərilən diqqət və qayğı sayəsində tarixi abidələrimizə yeni həyat verilir, daş yaddaşımız əvvəlki vəziyyətinə, görünüşünə qaytarılmaqla təzələnir. Tariximizin qaranlıq qalan hər bir səhifəsi yenidən vərəqlənir, oxunur. Bu mənada, Gülüstan türbəsi də dövlətimizin qayğısı ilə əhatə olunan abidələrdəndir. Türbə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 7 oktyabr tarixli "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında" Sərəncamı əsasında bərpa olunub.

Xalqımızın tarixini, mədəniyyətini, adət-ənənələrini özündə yaşadan digər daş yaddaşımız isə Kırna türbəsidir.



Rayonun Kırna kəndində yerləşən bu memarlıq abidəsinin ümumi quruluşu onun türbə və ya məscid olması haqqında mülahizə yürütməyə əsas verir. Planda kvadratşəkilli olan bina türbələr üçün səciyyəvi şəkildə ikiqat örtüklü olub, içəridə çatmatağlı, xaricdən isə piramidaşəkilli çadırvarı günbəzlə örtülüb. Abidənin üzərində kitabə olmadığından tikintinin inşa tarixinin dəqiq müəyyənləşdirilməsi mümkün deyil. Lakin türbənin memarlıq quruluşuna görə onun XIII əsrə aid olduğu ehtimal edilir.

*Bəli, abidələr təkcə tariximizin daş yaddaşı deyil, eyni zamanda onu yaradan xalqın istedad və zəkasının məhsulu, mədəni səviyyəsinin meyarıdır. Gücün, qüdrətin, zəkanın, mədəniyyətin bir növ nümayişi, tarixboyu əyilməz olan bir xalqın, bir ulusun bu günə əmanətidir. Bu əmanəti qorumaqla tarixi və mədəni irsimizi yaşatmaq isə hər birimizin vətəndaşlıq borcudur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Hər bir yerin tarixi yalnız kitablarda deyil, onun torpağında, tikililərində, abidələrində yaşayır. Tarixini, Vətənini sevən insanlar abidələri qoruyub gələcək nəsillərə ötürməlidir. Hər birimiz tariximizlə qürur hissi keçirməli, bütün dünyaya göstərməliyik ki, ulu babalarımız, əcdadlarımız belə zəngin tarixə malik olublar".***

✍ **Gülcamal TAHİROVA**

## Naxçıvanda qanvermə aksiyası keçirilib

*Avqustun 31-də – Aşura günü Naxçıvan Muxtar Respublikasında könüllü qanvermə aksiyası keçirilib.*

Naxçıvan Muxtar Respublika Xəstəxanasında 88 nəfərdən 44, Diaqnostika Müalicə Mərkəzində 33 nəfərdən 16,5 litr qan götürülüb. Rayon mərkəzi xəstəxanaları üzrə Şərurda 40 nəfərdən 20, Sədərəkdə 40 nəfərdən 20, Kəngərlidə 40 nəfərdən 20, Şahbuzda 36 nəfərdən 18, Culfada 66 nəfərdən 33, Ordubadda 35 nəfərdən 17,5, Babəkdə isə 72 nəfərdən 36 litr qan götürülüb. Ümumilikdə, muxtar respublika üzrə 450 nəfərdən 225 litr qan tədarük olunub.

Aşura günündə ənənəvi keçirilən qanvermə aksiyaları bu il pandemiya səbəbindən məscidlərdə deyil, səhiyyə müəssisələrində təşkil olunub. Sosial məsafə gözlənilməklə və sanitar-gigiyena qaydalarına ciddi əməl edilməklə keçirilən aksiyada götürülən qanın qrupları müəyyənləşdirilərək Naxçıvan Muxtar Respublika Xəstəxanasının Qan Bankına təhvil verilib.

Aksiya nəticəsində kifayət qədər qan ehtiyatı yaradıldığını vurğulayan Qan Bankının şöbə müdiri Məmmədəli Həsənov iştirakçılara təşəkkürünü bildirib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Son illər idman sahəsində həyata keçirilən tədbirlər onu deməyə əsas verir ki, muxtar respublikamızda bu sahə özünün inkişaf dövrünü yaşayır. Naxçıvanda müasir idman infrastrukturunun yaradılması, ölkədaxili və beynəlxalq səviyyəli yarışların sayının artması bu qədim diyarı həm respublikanın, həm də dünyanın idman mərkəzlərindən birinə çevirir. Həmçinin müxtəlif beynəlxalq yarışlarda nailiyyət qazanmış idmançıların adlarının Gənc İstedadların "Qızıl kitabı"na yazılması, onların Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülməsi idmana və idmançıya göstərilən dövlət qayğısından xəbər verir.*

### Dövlət proqramı icra olunur

# İdmanın inkişafı diqqət mərkəzindədir

Qeyd edilən bütün tədbirlər Naxçıvanda hər dövr üçün idmanın inkişafının diqqət mərkəzində saxlanıldığının mühüm göstəricisidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında yaradılan müasir təhsil və idman infrastrukturu gənc nəslin bacarığına görə peşə seçiminə və təhsil almasına, müxtəlif idman növləri ilə məşğul olmasına imkan verir. Bu sahədə görülən işlərin nəticəsidir ki, muxtar respublikada sağlam gənc nəsil yetişir. Gənclər zərərli vərdişlərdən və hüquqazidd hərəkətlərdən uzaqdır. Hər il ali məktəblərə qəbul olan gənclərin, eləcə də yüksək bal toplayanların sayı artır, gənclər müxtəlif idman yarışlarında uğurla çıxış edir, muxtar respublika iqtisadiyyatının inkişafına öz töhfələrini verirlər".***







Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı" isə bu sahədə yeni mərhələnin əsasını qoymuşdur. Muxtar respublikada idmanın inkişafı sahəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə hazırlanan proqramda 37 bənddən ibarət tapşırıqlar nəzərdə tutulmuşdur.

İdman sahəsində maddi-texniki bazanın möhkəmləndirilməsi sağlam və gənc nəslin yetişməsi üçün mühüm amildir. Dövlət proqramında bu istiqamətdə infrastrukturun modernləşdirilməsi, istirahət parklarında sadə idman qurğularının yerləşdirilməsi ilə bağlı tapşırıqlar müəyyən olunmuşdur. Mayın 10-da – ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 97-ci ildönümündə Naxçıvan şəhərində Sahil Parkı istifadəyə verilmişdir. Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak etmiş və parkda yaradılan şəraitlə tanış olmuşdur. Məlumat verilmişdir ki, parkda 2 idman meydançası, tennis kortu və 4 stolüstü tennis masası quraşdırılmışdır. Hər birinin sahəsi 450 kvadratmetr olan idman meydançalarında müxtəlif idman qurğuları qoyulmuşdur ki, bu da sakinlərin fiziki sağlamlığı baxımından mühüm əhəmiyyət kəsb edir. Parkın ərazisində uzunluğu 2 min 834 metr olan velosiped zolağı salınmış, 11 velosipedin alınması təmin edilmişdir. Kəngərli rayonunun Qarabağlar kəndində trenajor zalı istifadəyə verilmişdir. Eyni zamanda inşası davam etdirilən Uzunoba çimərliyinin ərazisində Naxçıvanda ilk çimərlik futbolu meydançası ikinci rübdən sonra istifadəyə verilmişdir. Aprel-iyun aylarında Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasında dart idman növü üzrə yaradılmış yeni bölmə idman qurğuları ilə təmin olunmuşdur. Proqramda nəzərdə tutulmuş muxtar respublikanın kəndlərində stadionların müasir tələblər səviyyəsində qurulması işi də diqqət mərkəzində olmuşdur. Belə ki, ikinci rübdə Culfa rayonunda mərkəzi stadion, Bənəniyar kənd stadionu, Sədərək rayonunda Sədərək kəndinin mərkəzi stadionu əsaslı təmir olunmuşdur.



Dövlət proqramında idmanın kütləviliyinin artırılması istiqamətində bu dövrdə idmanın müxtəlif növlərində 6 muxtar respublika, 2 şəhər birinciliyi, 2 yoldaşlıq görüşü təşkil edilmiş, şahmat üzrə 2 onlayn turnir keçirilmişdir. İyunun 16-da Şahbuz rayonunda təşkil edilən yüngül atletika və şahmat üzrə rayon birinciliklərində 150-dən çox idmançı iştirak etmişdir. Gənclərin fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi və onların Vətənin müdafiəsinə hazırlanması istiqamətində 4-9 may tarixlərdə hərbi beşnövçülük, 2-6 iyun tarixlərdə isə yüngül atletika və gimnastika üzrə yarışlar təşkil olunmuşdur.

Zərərli vərdişlərdən xilas olmağın ən mükəmməl yolu idmandır. Çünki idman gənclərdə məsuliyyət duyğusunu artırır və hissləri idarəetmə qabiliyyətini formalaşdırır. Dövlət proqramında da bədən tərbiyəsi və idman vasitəsilə xəstəliklərin, zərərli vərdişlərin qarşısının alınması ilə bağlı tapşırıq müəyyən edilmişdir. Tapşırığın icrası məqsədilə iyunun 23-də "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında keçirilən Sədərək rayon və Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının voleybol komandaları arasında yoldaşlıq görüşündə 25 idmançı iştirak etmişdir.

İdmanın digər sosial əhəmiyyəti isə sağlamlıq imkanları məhdud şəxslərin reabilitasiyası və cəmiyyətə inteqrasiyasının təmin edilməsində mühüm rol oynamasıdır. Bu sosial kateqoriyanın nümayəndələrində nitq və davranış problemlərinin aradan qaldırılmasında, idrak fəaliyyətinin inkişaf etdirilməsində idman əvəzolunmaz vasitədir. Dövlət proqramının icrasına uyğun olaraq iyunun 3-də Şərur Olimpiya İdman Kompleksində sağlamlıq imkanları məhdud şəxslər arasında Şərur və Sədərək rayon stolüstü tennis komandalarının yoldaşlıq görüşü, 15 İyun – Milli Qurtuluş Günü münasibətilə yüngül atletika üzrə Naxçıvan şəhər və boccia idman növündə muxtar respublika birincilikləri keçirilmişdir. Eyni zamanda ikinci rübdə 4 sağlamlıq imkanı məhdud idmançı tələbatlarına uyğun olaraq 7 reabilitasiya vasitəsilə təmin edilmişdir.

Tələbə və şagirdlərin idmanın müxtəlif sahələrində istedadlarının üzə çıxarılması gənc yaşlarından düzgün istiqamətləndirilmələrinə və gələcəkdə qazanılacaq nailiyyətlərin bünövrəsinin qoyulmasına səbəb olur. Bu, eyni zamanda onların zərərli vərdişlərdən uzaq durmalarına və sağlam fəaliyyətlə məşğul olmalarına da imkan yaradır. Ona görə də Dövlət proqramında müəyyən edilmiş təhsil müəssisələrində müxtəlif idman klublarının yaradılması, tələbə və şagirdlərin idmana cəlb edilməsi ilə bağlı tapşırığın mühüm əhəmiyyəti vardır. Tapşırığın icrası məqsədilə ikinci rübdə Naxçıvan Musiqi Kollecində voleybol, şahmat və yüngül atletikanın qaçış növü üzrə idman klubları yaradılmışdır.

İdmançıların sosial problemlərinin həlli onların bu sahəyə marağının daha da artırılması və səmərəli fəaliyyətlərinin stimullaşdırılması deməkdir. Proqramın icrasına uyğun olaraq aprel-iyun aylarında aztəminatlı ailələrdən olan 35 yeniyetmə və gəncin ödənişsiz idmanla məşğul olmasına şərait yaradılmışdır. Bu dövrdə "İdman könüllüləri"nin yarışların keçirilməsinə cəlb edilməsi işi də davam etdirilmişdir. İyunun 24-də Sahil Parkında təşkil edilən "Labirint" stolüstü oyununda hakim qismində könüllü gənclərin iştirakı təmin olunmuşdur.

*Gənclərin idmana həvəsləndirilməsində düzgün təbliğat işinin aparılması önəmli rola malikdir. Təşviq məqsədli müxtəlif maarifləndirici tədbirlərin keçirilməsi idmanla məşğul olan gənclərin sayının artmasına və idmanın kütləviləşməsinə şərait yaradır. İkinci rübdə Dövlət proqramının icrasına uyğun olaraq idmanın təbliği məqsədilə Naxçıvan Dövlət Televiziyasında 9 proqram, 1 veriliş, 3 videoçarx efirə təqdim edilmişdir. Eyni zamanda Naxçıvan Dövlət Radiosunda 13 veriliş hazırlanmış, "Şərq qapısı" qəzetində 2 yazı dərc edilmişdir.*

**"Şərq qapısı"**

# Rayonlarda dezinfeksiya tədbirləri həyata keçirilir

Sədərək rayonunda rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbəsinin 5 nəfər şəxsi heyəti, Mülki müdafiə alayının 10 nəfərdən ibarət dezinfeksiya qrupu, Gigiyena və Epidemiologiya Mərkəzi və Baytarlıq İdarəsinin şəxsi heyəti tərəfindən avtomobil yolları və səkilər olmaqla, ümumilikdə, 115 min kvadratmetr sahə dezinfeksiya edilib. Dezinfeksiya tədbirləri Sədərək gömrük-keçid, Sədərək yanacaqdoldurma məntəqələrini, rayon ərazisində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların girişləri və ətrafını, Mərkəzi Xəstəxana, Rabitə Evi, Qaz İstismar İdarəsi, Elektrik Şəbəkəsi, Baytarlıq İdarəsi, "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyətinin Sədərək rayon bazasını əhatə edib. Həmçinin Sədərək Şadlıq Sarayı, Çörəkbişirmə sexi, Qaraağac Ticarət Mərkəzi, Sədərək kənd məscidləri, Heydərabad Ticarət Mərkəzi, Heydərabad qəsəbəsinin əsas yolları, küçə və səkiləri, istirahət parkı, ikimərtəbəli yaşayış binasının giriş və ətrafı, yeddimərtəbəli yaşayış binasının zirzəmisi, giriş və



ətrafı, Heydərabad qəsəbə uşaq bağçası, Şahmat məktəbi, Heydərabad qəsəbə tam orta məktəbi, Sədərək kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin inzibati binası, 1 və 2 nömrəli tam orta məktəb, musiqi məktəbi və ətrafı da dezinfeksiya edilib. Görülən qabaqlayıcı tədbirlərə 2 xüsusi avadanlıq quraşdırılmış yanğınsöndürmə və 1 DUK avtomobili cəlb olunub.

Kəngərli Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi tərəfindən isə Təzəkənd, Çalxanqala və Xıncab kəndləri ərazisində tam orta məktəb, musiqi məktəbi və inzibati ərazi dairələri üzrə nümayəndəliklərin inzibati binalarının ətrafı, giriş və zirzəmiləri dezinfeksiya qrupları tərəfindən dezinfeksiya olunub.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan aşıqları onlayn konsert verib



***Onlayn konsert proqramları çərçivəsində Naxçıvan Muxtar Respublikası Aşıqlar Birliyi üzvlərinin onlayn konserti baş tutub.***

2009-cu ildə yaradılan Aşıqlar Birliyi Naxçıvanda yaşayan aşıqları bir araya gətirib. Həmin tarixdən etibarən Naxçıvan aşıq sənəti yeni inkişaf mərhələsinə qədəm qoyub, Naxçıvan aşıqlarının yaradıcılıq imkanları daha da genişlənib.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən təşkil edilmiş onlayn konsert proqramında qədim el havalarından "Şirvan" gözəlləməsi, aşıq havalarından "Ruhani", "Baş dübeyti", "Zülfüqar dübeyti", "Naxçıvani" və ustad aşıq yaradıcılığından "Naxçıvan gülü", "Fəxri" və "Müxəmməs" kimi saz havaları səsləndirilib. Onlayn konsertdə birliyin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Tural Bağırovun, üzvlərdən Aydın Cəfərovun, Nurçin Məmiyevanın, həmçinin Gülzar Əhmədlinin, Leyla Kərimovanın, Güntac Ayazlının və Lamiyə Tahirovanın qrup şəklində ifaları izləyicilər tərəfindən maraqla qarşılanıb. Sazsöz ustalarımızı balabanda Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Əli İsmayılov, nağarada Samiq Kazımov, qoşa nağarada isə Nəsir Həsənov müşayiət ediblər.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Elan

"Naxçıvan" Universiteti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2020-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planına əsasən 2020-ci il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya qəbul elan edir.

***Doktoranturaya ödənişli əsaslarla:***

1. German dilləri – 1 yer
2. Etnopedaqogika – 1 yer

***Dissertanturaya ödənişli əsaslarla:***

1. Cəbr – 1 yer
2. Ehtimal nəzəriyyəsi – 1 yer
3. Ümumi iqtisadiyyat – 2 yer
4. German dilləri – 3 yer

"Naxçıvan" Universitetinə Doktorantura və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

*- "Naxçıvan" Universiteti rektorunun adına ərizə;*

*- kadrların şəxsi-qeydiyyat vərəqi;*

*- tərcümeyi-hal;*

*- 4 ədəd fotoşəkil (3x4 santimetr ölçüdə);*

*- iş yerindən xasiyyətnamə;*

*- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*

*- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*

*- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun və ona əlavənin müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);*

*- şəxsiyyəti təsdiq edən sənədin surəti.*

**Qeyd:** Sənəd qəbulu 25 sentyabr 2020-ci il tarixə qədərdir.

***Ünvan: Naxçıvan şəhəri, Babək məhəlləsi 1, "Naxçıvan" Universiteti şəhərciyi***
***Telefon: (036)545-07-45***

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Səbuhi Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 655**